**Natəvan Yadulla qızı KƏRƏMOVA**
Qərbi Kaspi Universiteti, biologiya üzrə fəlsəfə doktoru, müəllim
E-mail: phd@karamova@mail.ru

**Ayişə Əşrəf qızı ŞİRİNOVA**
Qərbi Kaspi Universiteti, II kurs magistr
E-mail: ayisesirinova00@gmail.com

**Cavanşir Zamaddin oğlu ABBASZADƏ**
Qərbi Kaspi Universiteti, II kurs magistr
E-mail: abbaszadecavansir@gmail.com

**Əsəd Saməddin oğlu ƏSƏDZADƏ**
Qərbi Kaspi Universiteti, II kurs magistr
E-mail: esed.esedzade00@gmail.com

# YENİYETMƏLƏRDƏ HÜQUQAZİDD DAVRANIŞLARIN ƏSAS SƏBƏBLƏRİ

**Xülasə**

Təqdim olunan məqalədə yeniyetmələrdə rast gəlinə bilən hüquqazidd davranışların yaranma səbəbləri araşdırılmış, risk faktorları ədəbiyyat mənbələrinə əsasən qeyd edilmişdir. Gələcəkdə yarana biləcək hüquqzidddavranışların qarşısının alınması üçün yaranma səbəbləri və risk faktorlarını bilməklə, normal davranışı olan sağlam yeniyetmə və qəbul olunmuş normativə uyğun cəmiyyət qazanmaq mümkündür.

**Açar sözlər:** yeniyetməlik yaş dövrü, hüquqazidd davranışlar, zərərlı vərdişlər, yadlaşma davranışı, asosial davranış, natamamlıq hissi, patopsixoloji dəyişikliklər, nevrotik həyəcan, MSS-nin müxtəlif patologiyaları.

## Giriş

Müasir dövrümüzdə insanın şəxsiyyət kimi inkişafına tələbat yüksəkdir. Şəxsiyyətin dəyərləndirilməsinin isə bir neçə əsas kriterisi var: sosial məhsuldarlıq, emosional stresə qarşı dözümlülük, yaradıcılıq qabiliyyəti, cəmiyyətdə xüsusi mövqeyə malik olma, qəbul edilən davranış normativlərinə əməl edilməsi və s. Bütün kriterilər insanın şəxsiyyətinin tam formalaşmasında iştirak edir və inkişaf səviyyəsinin qiymətləndirilməsi üçün vacib sayılır [10,17]. Arzu olunan cəmiyyətin formalaşması üçün uşaq və yeniyetmələrin normal inkişafına şərait yaratmaq və mümkün ola biləcək patoloji motivasiyaların qarşısını almaq lazımdır. Xüsusilə, son illərin aktual problemlərindən biri yeniyetmələr içərisində hüquqazidd davranışların yaranması və cinayətə cəlb olunan yeniyetmələrin sayının getdikcə artmasıdır. Yeniyetmələrdə hüquqazidd davranışların yaranmasının əsas səbəbləri müxtəlif ədəbiyyat mənbələrində araşdırılsa da, hələ də həllini tapmamış suallar mövcuddur [8,28,30].

Ədəbiyyatdan məlumdur ki, müxtəlif faktörlar yeniyetmələrin hüquqazidd davranışlarının yaranmasına səbəb ola bilər [3,11]. Bu faktorları bir neçə qrupa bölmək olar:

1) Yeniyetmənin fərdi inkişafı, xüsusi qabiliyyətləri və bacarıqları ilə bağlı amillər;

2) Yeniyetmənin ailəsi, xüsusilə valideynlər arasındakı münasibətlər;

3) Yeniyetmə və ailəsinin yaşadığı mühit və iqtisadi vəziyyət;

4) Yeniyetmənin ünsiyyətdə olduğu sosial qruplar və zərərli vərdişlərə münasibət;

Əslində qeyd olunan faktorlar bir-biri ilə sıx əlaqə yaradaraq mühüm xoşagəlməz və cəmiyyətdə qəbul olunmayan nəticələr yara bilər. Yeniyetmələrin cinayət törətməsi və hüquqazidd davranışları mənfi emosional, zehni gərginlik, ailə-məişət, ictimai və s. təsirlərin ortaya çıxardığı son nəticələrdən biri ola bilər.

Aparılan bir çox araşdırma cinayətkar yeniyetmələrin xüsusi şəraitdə və müəyyən mühitdə cinayətkar əməllərə istiqamətləndiyini göstərir. Belə mühitlərədn biri adətən sevgisiz, güvənilməyən, qarışıq, qeyri-müəyyən və aqressiya dolu ailə vəziyyətidir ki, nəticədə yeniyetmələrin fərdi və şəxsi inkişafı ləngiyir, psixoloji və adaptasiya proseslərinin tam formalaşması pozulur. Deyilənlərə səbəb adətən ailədə baş verən münaqişəli vəziyyətlər, maddi problemlər, ayrılıq və ya ailələrdə boşanma halları, alkoqol və s. zərərli vərdişlərdən sui-istifadə, sərt disiplin, qarşılıqlı anlayışsızlıq, qayğı göstərilməməsi və digər anti-sosial meyillərin cəmləşməsidir [1,6,9,14].

Cinayət törədənlərin şəxslərin keçmiş həyatları və ailələri araşdırıldıqda, çox zaman uşaqlıq və erkən yeniyetməlik dövründə ata-anaları tərəfindən qayğı görmədikləri, şiddətə məruz qalma və ya ailədə güvənsizlik, sevgidən məhrüm böyümüş yeniyetmələr olduqları məlum olur. Kütləvi cinayətlərə yönələnlər isə uşaqlıq dövründə məhrumiyyət çəkməmiş, lakin sonrakı dövrlərdə sevgisiz və nəzarətsiz qalmış insanlardır [2,5,12].

Hüquqazidd davranışlarla bağlı aparılan araşdırmalar cinayət törədən yeniyetmələrin ailələrindəki problemlərdən birinin təhsildən yayınma və ya intellektual səviyyənin aşağı olmasıdır. Ailənin sosial-iqtisadi şərtləri ailənin psixi vəziyyətinə təsir etdiyi kimi, yeniyetmələrin şəxsiyyətinin quruluşuna da təsir edir. Arzuları həyata keçməyən və ya məcburi olaraq pis həyat şəraitinə, məhrumiyyətlərə məhkum edilən yeniyetmələrdə ciddi narahatlıq müşahidə olunur və onların şüurunda dərin izlər qoyaraq davamlı özünə inamsızlıq halı əmələ gətirir [2,4,13,18].

Hər bir cinayətdə ailə faktoru ən əsas rol oynamaqdadır, lakin cinayətlərdə yeniyetmələrin aqressiyasının digər bir səbəbi kimi zərərli vərdişlərə olan meyilliyi haqqında ədəbiyyat məlumatlarına çox rast gəlinir. Belə ki, ailəsi ilə münasibətlərində öz şəxsi ehtiyaclarını ödəyə bilməyən yeniyetmələr öz həmyaşıdlarının təşkil etdiyi qruplara qoşularaq zərərli vərdişlərə başlayırlar (siqaret, akoqollu içkilərin qəbulu, narkotik maddədən istifadə etmə və s.). Belə qruplardan kənarda qalmaq istəməyən və özünütəsdiq məqsədi güdən yeniyetmələrin nəzərində zərərli vərdişlərin onun üçün yaratdığı problemlər daha az ziyanlı görünür ki, nəticədə zərərli vərdişlərə adət etməkdə çox az tərəddüd edirlər, bəzən isə heç çətinlik də çəkmirlər.Təbii ki, yeniyetmələrin normativlərə uyğun olmayan qida və s. vasitələrdən istifadə yeniyetmənin fiziki-psixi inkişafına mənfi təsir edə bilər [1,9,16,22].

Zərərli vərdişlər arasında narkotik maddə aludəçiliyi xüsusilə təhlükəlidir. Çünki narkotik maddələr asılılıq yaradır və yeniyetmələrin hüquqazidd əməllər üçün istifadə olunmasını qat-qat asanlaşdırmaqla bərabər, onların həyatı üçün böyük qorxular yaradır. Ədəbiyyatda qeyd olunur ki, yeniyetmə orqanizmi psixotrop və ya digər narkotik maddələri qəbul edən zaman psixoloji nəzarət funksiyasında ləngimə yaranır. Yeniyetmələr bir saniyə belə düşünmədən onlardan tələb olunan cinayəti törədə biləcək robotlara çevrilirlər. Hətta buna görə cinayətkar qruplar çox zaman qəsdən narkotik maddələrin yeniyetmələr arasında yayılmasına çalışırlar. Daha çox kasıb ailələrdə böyüyən yeniyetmələri hədəf alırlar və belə ailələrinin maddi imkanın zəif olması səbəbini əsas tutaraq onlar öz zərərli vərdişləri ilə bağlı tələbatlarını ödəyə bilmək üçün cinayət törətməyə məcbur olurlar [13,21].

Ədəbiyyatda ailə bağları güclü olan, yetərincə sevgi alan və uyğun həddə nəzarətdə saxlanılan yeniyetmələr hətta kasıb və təhsil səviyyəsi aşağı olan ailələrdə böyüsələr də hüquqazidd əməllərə çox nadir hallarda yönəlməsi haqqında məlumatlar çoxdur. Beləliklə də, yeniyetmələrin hüquqazidd əməllərinin qarşısını almaq üçün ailəvi və ictimai dəyərlər bir-birini qarşılıqlı surətdə tamamlamalıdır [3,16,19].

Bəzi ədəbiyyatlarda yadlaşma davranışı-asosial davranışların kəskin formada təzahürüdür və bunu qəbul olunmuş normal cəmiyyətdən uzaqlaşmaq saymışdır. Nəticədə asosial yeniyetmə cəmiyyətdən təcrid olunmuşlar qrupuna və ya zərərli vərdişləri olan, davranışları ilə fərq-lənən qruplara qoşulmağa istiqmətlənir, gələcək üçün potensial cinayətkar və hüquqazidd davranışların yaranmasına şərait yaranır. Bundan əlavə alim qeyd etmişdir ki, cəmiyyətin yeniyetmələrə laqeyd münasibəti yadlaşmaya, onlarda asosial davranışın təzahürlərinin dərinləşməsinə,

təhsildən yayınmaya, pedaqoji cəhətdən baxımsız yeniyetmələrdə cinayi davranışın formalaşmasının güclənməsinə səbəb ola bilər [1,15].

Ədəbiyyatda asosial davranışın yalnız müəyyən təzahürləri cinayi, hüquqazidd davranışa səbəb ola bilər. Buna bir sıra xüsusiyyətlər aiddir:

1.Asosial davranış, sosial və psixoloji yadlaşma yeniyetmələrin şəxsiyyətlərarası münasibətləri tənzim edən sosial normaların yaranmasını və əsas davranışın formalaşmasını çətinləşdirir və bəzən qarşısını alır.

2.Yeniyetmənin yadlaşması onda ətraf mühitə və sosial cəmiyyətə, doğma insanlara mənfi münasibətlərin formalaşmasına, bəzən düşmənçilik hissinin yaranmasına, aqressiv davranışa səbəb ola bilir. Nəticədə hüquqazidd davranış və yeni qatı cinayətlərin motivi formalaşa bilər [1,12,23].

Yeniyetmələrin hüquqazidd davranışının formalaşmasında asosiallıq mühüm əhəmiyyət kəsb edən faktorlardan biridir. Ədəbiyyat mənbələrində şəxsiyyətin inkişafına, onun başqa insanlarla münasibətlərinin xarakterinə natamamlıq hissinin təsirini əsas götürmüş və natamamlıq hissinin köklərinin uşaq vaxtındakı hadisələrlə əlaqələndirmişlər, 3 əsas faktorun natamamlığın yaranmasında rolunu qeyd etmişlər. İlk olaraq uşaqda müəyyən orqanların natamamlığı, qüsurlu olması və ya fiziki qüsurlu doğulması faktıdır və sonradan həyatı dərk edən yeniyetmələrdə psixoloji təsirin yaranmasına, davranışın pozulmasına şərait yaradır. Bundan əlavə, uşağın həddən artıq əzizlənməsi, xüsusi diqqət və qayğı göstərilməsi, nazlanması haqqında məlumat verilir. Sonunda uşaq ərköyün yeniyetməyə çevrilir, davranışın pozulmasına və psixofizioloji normativlərdən kənarlanma müşahidə edilir. Axırıncı amil kimi uşağa valideynlər tərəfindən laqeyd münasibət göstərilməsi, onun sevilməməsi, güvənilməməsi, mənfi münasibət və şiddətiqeyd etmək lazımdır. Bu səbəblər isə hüquqazidd davranışların yaranmasına mühüm rol oynayır [2,18,20,23,29].

Bəzən davranış pozulmasının səbəblərindən biri mərkəzi sinir sistemində (MSS) baş verən patologiyalar ola bilər. Belə ki, fərdi aktivləşmə səviyyəsi və psixi funksiyaların normal formalaşması MSS-də gedən proseslərin xarakteristikası və şəxsi psixoloji xüsusiyyətlər ilə əlaqəlidir. Şəxsiyyətin çoxsaylı xüsusiyyətləri içərisində temperament spesifik xarakterlidir və sinir proseslərinin hərəkiliyini müəyyən edir. İnformasiya qəbulu vaxtı temperament tipi orqanizmdə konkret universal tənzimləyici və uyğunlaşdırıcı rol oynayır. Eyni zamanda temperament xoşagəlməz situasiyalarda fərdi həssaslığı təyin edə bilir, cavab reaksiyalarının əmələ gəlməsinə və keyfiyyətinə təsir edir. Davranışın formalaşması təbii ki həm də ali sinir fəaliyyətinin növündən asılıdır. Sinir sisteminin yüksək oyanıqlığı, stresə davamsızlıq,iradənin zəif olması, hiperaktivlik, nevrotik gəyəcanın yüksəlməsi və s. davranışın normadan fərqlənməsinə və bəzən isə hüquqazidd davranışlara gətirib çıxarır [7,20,23,25,30].

Normal həyəcan zamanı insan sərbəst şəkildə qərar qəbul edir, və vəziyyətən çıxmağa çalışır. Fərqli olaraq, nevrotik həyəcan zamanı qərarsızlıq, üzücü şübhəli vəziyyətin yaranması və ləngimə, vəziyyətdən çıxmaq prosesinin uzadılması, səbrsizlik, gözləmə mövqeyində durmaq və s. vəziyyətlər yaranır ki, bu da bəzən çox pis nəticə ilə sonlanır. Belə yeniyetmələr həm emosional gərginlik şəraitlərində, həm də adi həyat axarında uzun müddət özlərini hazırlayır, saysız-hesabsız ölçmələr həyata keçirir, öz imkanlarını sınaqdan keçirir, özlərini sakitləşdirir və təsəlli verir, davranışın qüsurlu formalaşmasına imkan yaradır. Ailədə qayğı və valideyn nəzarətinin güclü olması fonunda nevrotik həyəcanı olan yeniyetmələr gələcəkdə normal əmək fəaliyyəti ilə məşğul ola bilərlər. Əks halda, potensial cinayətkar və liderin formalaşması zəmini yaranır [20,21].

Yeniyetmələrin hüquqazidd davranışlarının formalaşmasına stres, həyəcan və emosional gərginlik şəraitlərinin çox olması da səbəb olur. Həyəcan məhz təhlükənin təsirindən yaranır və insanın şəxsi xüsusiyyətləri ilə, temperament tipləri ilə əlaqəlidir. Ədəbiyyatdan məlumdur ki, "insan-ətraf mühit" sistemində şəraitlər arası fərqin artması hesabına emosional gərginliyin də səviyyəsi artır, subyektiv mexanizmlər formalaşaraq, insanın yaranmış şəraitdən çıxarılması və ya müdafiəsi prosesi inkişaf edir. Əgər şəxsiyyətin emosional mexanizmləri ilə yaranmış şərait arasında uyğunsuzluq olarsa, o zaman psixoemosional gərginlik yaranması müşahidə edilir [7,8]. "İnsan-mühit" sisteminin tarazlığının hər hansı qüsuru və ya çatmamazlığı yaranarsa,

insanın psixi, fiziki ehtiyatlarının real tələbatının təmin olunması belə həyəcan mənbəyinə çevrilir. Ümumiyyətlə, həyəcan prosesi davamiyyəti və intensivliyinə görə qeyri-adekvat şəraitdir. Qeyd olunan xarakter xüsusiyyət isə, davranışın adaptasiyasına mane olaraq, davranışın inteqrasiyasının pozulmasına, psixi və koqnitiv proseslərin dərin dəyişikliklərinə səbəb olur. Həyəcan prosesi stres yarada bilən bütün psixi proseslərin əsasında durur. Yeniyetməyə zamanında psixoloji və ya tibbi yardım edilməzsə, yaş artdıqca davranışın pozulması müşahidə edilir. Qorxu, həyəcanın yüksək səviyyəsi yeniyetmənin hüquqazidd davranışı olan qruplara düşməsinə, özünütəsdiq üçün cinayətin edilməsinə və s. şərait yarada bilər [10,15,17,28].

Ən çox rast gəlinən patopsixoloji dəyişikliklərdən biri depressiyadır. Ailə problemləri, mənfi həyat təcrübələri, aşağı özünə hörmət və məktəb uğursuzluğu depressiyaya səbəb ola bilər. Depressiya emosiyalarda güvənsizliyin, bədbinliyin baş verməsini, düşüncə və hərəkətlərin ləngiməsini təsvir edən psixi xəstəlik vəziyyətidir. Uşaqlıqda depressiya çox az hallarda görünsə də, uşaqlıqdan yeniyetməliyə keçiddə depressiya artır. Yeniyetməlikdə depressiya daha çox qısa müddətli və müəyyən vəziyyətlərdən asılı olaraq ortaya çıxır. Depressiyanın əlamətləri yeniyetməliyin istənilən çağında yarana bilər və bu, yuxuya, iştahaya, çəkiyə öz mənfi təsirini göstərir. Belə vaxtlarda insan özünü çarəsiz, ümidsiz, dəyərsiz və məyus hiss edə bilər. Diqqəti cəmləmək və yaddaşla bağlı problemlər, intihara meyillilik və təşəbbüs halları, özünü cəmiyyətdən təcrid etmək, həmçinin tibbin izah edə bilmədiyi digər əlamətlər də depressiyaya daxildir. Depressiya qanı cinayətlərə səbəb olan davranış pozulmalarına səbəb olmasa da, fərdi inkişafa mənfi təsir edir, normadan kəskin fərqlənən davranışın yaranmasına və bəzi hallarda intiharlara səbəb ola bilər [1,3,26,29].

Yeniyetmələrdə ciddi patopsixoloji dəyişiklik yaradan xəstəliklərdən biri şizofreniyadır. Şizofreniya adətən uşaqlıq və yeniyetməlik dövründə (80-85%) başlayır. Bu diaqnoz qoyulmamışdan əvvəl onların davranışları dəyişir, adətən qəribə, ekssentrik, utancaq, narahat, tənha uşaqlar kimi fərqlənirlər. Şizofreniya 15 yaşından əvvəl başlayır. Oğlanlarda qızlara nisbətən 1,5-2 dəfə çox rast gəlinir və hüquqazidd davranışların yaranmasında mühüm yeri vardır. Şizofreniyalı xəstələr həm hallusinasiyaların təsirindən, həm də onları idarə edən cinayətkar liderin əmri ilə cinayətlər törədirlər. Hüquqazidd davranışlar hər iki halda anlaqsız törədilir [5,25].

Sağalmaz xəstəliklərdən biri və kəskin davranış pozulmaları ilə fərqlənən xəstəliklərdən biri anadangəlmə əqli zəiflikdir. Əqli zəiflik uşağın öz xronoloji yaşına uyğun koqnitiv səviyyədə olmaması deməkdir. Başqa sözlə desək, uşağın yaşına uyğun məlumat əldə etmək, özünü ifadə etmək, bacarıq inkişaf etdirmək, mücərrəd inkişaf, mühakimə yürütmək və nəticə çıxarmaq kimi sahələrdə ciddi problemlər qeyd olunur. İntellekt səviyyəsi çox aşağı olur, davranışda ciddi problemlər yaranır, emosional sfera dəyişir, məntiq yox səviyyəsində olur. Ədəbiyyatdan məlumdur ki, yalnız yüngül debillik səviyyəsi olan oliqofreniklər hüquqazidd davranışlara səbəb ola bilər ( kiminsə tövsiyyəsi və əmri ilə) və cinayəti anlaqsız həyata keçirir, məsuliyyəti dərk etmirlər [1,3,7,8,17].

Son illər hiperaktiv uşaqların və epilepsiya xəstələrinin gələcəkdə real hüquqazidd davranış törədə biləcək yeniyetmələr olacağı haqqında ədəbiyyat məlumatları çoxdur [2,24,27,30].

Beləliklə, hüquqazidd davranışların yaranmasında ən çox əhəmiyyəti olan psixoloji, sosial və fizioloji səbəbləri araşdırarkən bu nəticəyə gəlmək olur ki, yeniyetmələrə xüsusi qayğı və diqqətin göstərilməsi, güclü və sevgi ilə dolu valideyn nəzarətinin olması, ehtiyac olan zaman tibbi və psixoloji yardımın edilməsi gələcəkdə baş verə biləcək cinayətlərin reallaşma ehtimalını azaldır. Sağlam və təhsilli yeniyetmə sağlam və güvənli cəmiyyətin əsasıdır.

## ƏDƏBİYYAT SİYAHISI

1. Bayramov Ə, S. Əliyev B H. Huquq psixologiyasi. Bakı. 2012. Səh.318.
2. Bayramov Ə.S., ƏlizadəƏ.Ə., Seyidov İ.Ə. Məhkəmə psixologiyası və psixoloji ekspertiza məsələləri, Bakı, ADU, 1987, 84s.
3. Cavadov R.Ə., Qarayev R.M. Yeniyetmələrin hüquqa zidd davranışının bəzi psixoloji məsələləri. "Müasir elm: problemlər perspektivlər" mövzusunda elmi praktik konfransın materialları, Bakı, 2000, S.17

4. Cavadov R.Ə., Tağıyeva G.B. Ekstremal şəraitlərdə psixoloji xidmət (Ali məktəblər üçün dərslik), Bakı, 2006.

5. Əliyev B.H. Cinayət və mülki prosesdə məhkəmə-psixoloji ekspertizası problemləri, Bakı, Azərnəşr, 1996, 200 s.

6. Həsənov E.H. Yetkinlik yaşına çatma-yanların törətdikləri cinayətin qarşısını almaq məsələləri, Bakı, Maarif, 1991, 172 s.

7. Kərəmova N.Y. Əqli zəif yeniyetmələrdə emosional gərginliyin psixofizioloji göstəricilərə təsirinin xüsusiyyətləri. AMEA A.İ.Qarayev adına Fiziologiya İnstitutunun və Azərbaycan Fizioloqlar Cəmiyyətinin elmi əsərlərinin külliy-yatı. Fiziologiya və biokimyanın problemləri. XXVI cild, Bakı, 2008, səh.117-122.

8. Kərəmova N.Y., Məmmədov Z.H. Praktiki sağlam və oliqofrenik yeniyetmələrdə emosional stresin dərketmə proseslərinə təsirinin müqayisəli təhlili. AM E A, “Məruzələr”, LXII cild, №3-4, Bakı, 2006, səh.112-119

9. Абдурашитов Н.Ф. Семейная ситу-ация развития подростков-Правонаруши-телей // Молодежь в социокультурном Про-странстве : мат-лы IV регион. Науч.-практ. Конф. Студентов, Аспирантов и молодых ученных (24 октября 2013 г.). Тобольск : ТГСПА 2014.

10. Алиев Б.Г. Психологические методы изучения личности преступника, Баку, Прог-ресс, 1997, 32с.

11. Алиев Б.Г., Мамедова С.И. Соци-ально-психологические проблемы личности несовершеннолетних правонарушителей, Баку, БГУ, 1996, 62с.

12. Атаханов Р., Абдурашитов Н. Ф. Детско-родительские отношения подростков-правонарушителей в условиях их Пребы-вания в специальной школе // Инновацион-ные Технологии в технике и образовании : сб. Ст. V междунар. Науч.-Практ. Конф. : в 2 ч. / Забайкал. Гос. Ун-т; отв. Ред. М. И. Мелихова. Чита, 2014. Ч. 1. С. 16-27.

13. Башкатов И.П. Психология групп несовершеннолетних правонарушителей, М., Прометей, 1993, 251с.

14. Горьковая И. А. Влияние семьи на формирование Делинквентности у подрост-ков // Психологический журнал. 1994. Т. 15. № 2. С. 57-65.

15. Калашник Я.М. Патологичесий аффект. Психология эмоций. Тексты, М., МГУ, 1984, С.220-227.

16. Каледин Р.А. Тактика следственных действий по делам о групповых преступле-ниях несовершеннолетних. Автореф. на соиск. учен.степ. канд.юр. наук, Свердловск, 1985, 14 с.

17. Карамова Н.Я. Влияние эмоциональ-ного напряжения на формирование когни-тивных процессов у школьников в зависи-мости от уровня их умственного развития Информационно-аналитический журнал «Ак-туальные проблемы современной науки», №4, том 48, Москва, 2009, стр. 274-278

18. Кондрашенко В.Т. Девиантное пове-дение у подростков (социально-психологи-ческий и психиатрический аспект), Беларусь, 1988, 288с.

19. Коченов М.М. Теоретические основы судебно-психологической экспертизы: Авто-реф. на соиск. учен.степ.док.психол. наук, М., 1991, 22с.

20. Личко А.Е. Подростковая психиатрия. Ленинград «Медицина»-1985, 447 с.

21. Личко А.Е. Психопатология и акцен-туации характера у подростков,78 М., "Медицина", 1983, 256с.

22. Меджидова С.М. Социально-психологические типы несовершенно-летниих преступников, Л., 1985, 217с.

23. Юнг К. Психологические типы. Пси-хология индивидуальных различий. Тексты, М., МГУ, 1982, С.199-218.

24. Appleton R.E, Neville B.G.R., Teenagers with epilepsy, Arch Dis Child 1999; 81:76–79

25. Cris H., Adolescent schizophrenia. Advances in Psychiatric Treatment, 2000, vol. 6, pp. 83–92

26. Humphreys K.L., Le Moult J., Wear J.G., Piersiak H.A., Lee A., Gotlib I.H. Child maltreatment and depression: a meta-analysis of studies using the Childhood Trauma Questionnaire. Child Abuse Negl. 2020

27. James W.W., Howard L.K., Adolescent Seizures and Epilepsy Syndromes. Epilepsia, 2002, 43 (Suppl. 3):33–52

28. Karamova N.Y., Hakverdieva Z., Akbarova Kh., Kazenferov E.The study about the impact of emotional tension on the students’

excıtement and memory processes.World Scıence, № 8(48) Vol.3, August 2019, p.34-38, Warsaw, Poland, RS Global.

29. Malone S.E. Adolescent Depressive Symptoms and Substance Use: The Mediating Influence of Health Service Utilization. 2013, Sociology Theses, Dissertations, Student Research. 27.

30. Teicher MH, Samson JA. Childhood maltreatment and psychopathology: a case for ecophenotypic variants as clinically and neurobiologically distinct subtypes. Am J Psychiatry. 2013.

**Натаван Ядулла гызы КАРАМОВА**
доктор философии по биологии,
преподаватель Западно-Каспийский университета
E-mail: phd@karamova@mail.ru

**Айша Ашраф гызы Ширинова**
Западно-Каспийский Университет

**Джаваншир Замаддина оглы АББАСЗАДЕ**
Западно-Каспийский Университет

**Асад Самеддин оглы АСАДЗАДЕ**
Западно-Каспийский Университет

# ОСНОВНЫЕ ПРИЧИНЫ ПРОТИВОПРАВНЫХ ДЕЙСТВИЙ У НЕСОВЕРШЕННОЛЕТНИХ

**Резюме**

В данной статье рассматриваются причины противоправного поведения, которые можно обнаружить у подростков, а факторы риска представлены на основе литературных источников. Зная причины и факторы риска для предупреждения противоправного поведения, которое может возникнуть в будущем, можно воспитать здорового подростка с нормальным поведением и обществом в соответствии с принятыми нормами.

**Ключевые слова:** подростковый возраст, противоправное поведение, вредные привычки, поведение отчуждения, асоциальное поведение, чувство неполноценности, патопсихологические изменения, невротическое возбуждение, различные патологии ЦНС.

**Natavan Yadulla KARAMOVA**
PhD in Biology,
lecturer at West Caspian University
E-mail: phd@karamova@mail.ru

**Aisha Ashraf Shirinova**
Western Caspian University

**Javanshir Zamaddin ABBASZADE**
Western Caspian University

**Asad Sameddin ASADZADE**
Western Caspian University

## MAIN CAUSES OF ILLEGAL ACTIONS IN MINORS

**Summary**

The presented article examines the causes of illegal behavior that can be found in teenagers, and the risk factors are listed based on literature sources. By knowing the causes and risk factors for the prevention of illegal behavior that may arise in the future, it is possible to have a healthy teenager with normal behavior and a society in accordance with accepted norms.

**Key words:** adolescence, illegal behavior, harmful habits, alienation behavior, antisocial behavior, feeling of incompleteness, pathopsychological changes, neurotic excitement, various pathologies of the CNS.

**Daxil olub:** 02.01.2023